**UOT 316**

# İLK DÖVLƏTLƏRİN TƏŞƏKKÜLÜ MƏSƏLƏSİNƏ DAİR (SOSİAL-FƏLSƏFİ TƏHLİL)

**Rövşən Hacıyev**
Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
vinodelrovshan1@rambler.ru
DOI:10.30546/ifs.2021.1(36).63

**Xülasə.** Məqalədə ilk dövlətlərin təşəkkülü məsələsi tədqiq edilir. Bu məqsədlə ilk növbədə "dövlət" anlayışının məzmunu müəyyən olunur. Aydınlaşdırılır ki, mütəxəssislər "dövlət" anlayışının üç əhəmiyyətli əlamətini ayırd edirlər: ərazinin mövcudluğu, verginin tutulması və idarəetmə aparatının mövcudluğu. Tanınmış alimlərin baxışlarının analizi əsasında, həmçinin konkret tarixi faktlardan istifadə edilərək "dövlət" anlayışının daha bir əhəmiyyətli əlaməti üzə çıxarılır. Bu əhəmiyyətli əlamət tarixdə ilk şəxsiyyətlərin, yəni hökmdarların meydana gəlməsi amili kimi müəyyən olunur. Məqalədə erkən dövlətlərin mühüm formasını əks etdirən "başçılıq sistemi" anlayışının mahiyyəti üzə çıxarılır.

**Məqsəd**: tarixi prosesdə ilk dövlətlərin yaranmasının başlıca səbəbini üzə çıxarmaq;

**Metodologiya**: bəşəriyyətin intellektual təkamülünün yaş dövrləşdirilməsi hipotezasından tədqiqatın metodoloji əsası kimi istifadə edilmişdir;

**Elmi yenilik**: ilk dövlətlərin meydana gəlməsində ilk hökmdarların mühüm rolu üzə çıxarılmışdır;

**Açar sözlər**: sosiomədəni sistem, dövlət, erkən dövlət, başçılıq sistemi, retsiprok paylaşdırılma, redistributiv paylaşdırılma.

## К ВОПРОСУ СТАНОВЛЕНИЯ ПЕРВЫХ ГОСУДАРСТВ (СОЦИАЛЬНО-ФИЛОСОФСКИЙ АНАЛИЗ)

**Ровшан Гаджиев**

**Резюме**. В статье изучается вопрос становления первых государств. С этой целью первоначально определяется содержание понятия «государство». Выясняется, что специалисты выделяют три основные существенные признаки понятия «государство»: наличие территории; взимание налогов; аппарат управления. На основе анализа взглядов ведущих ученых, а также с привлечением конкретных исторических данных выявляется еще один существенный признак для определения содержания государства. Таким существенным признаком является появление первых в истории личностей, т.е. правителей. В статье раскрывается сущность понятия «система вождизма», т.е. еще одной формы раннего государства.

**Цель:** выявить основную причину возникновения первых государств в историческом процессе;

**Методология:** гипотеза возрастной периодизации интеллектуальной эволюции человечества использовалась в качестве методологической основы исследования;

**Научная новизна:** выявлена важная роль первых правителей в становлении первых государств

**Ключевые слова**: социокультурная система, государство, раннее государство, вождество, реципрокное распределение, редистрибутивное распределение.

# ON THE QUESTION OF THE FORMATION OF FIRST STATES (SOCIO-PHILOSOPHICAL ANALYSIS)

**Rovshan Hajiyev**

**Abstract.**The article examines the formation of the first states. To this end, the content of the "state" concept is initially determined. It turns out that experts distinguish three mainly essential features of the "state" concept: the presence of territory; tax collection; management system. On the basis of the analysis of the views of leading scientists, as well as with the use of specific historical data, another essential feature is revealed to determine the content of the state. Such an essential feature is the appearance of the first personalities in the history, i.e. kings. The article reveals the essence of the concept of "chiefdom", i.e. one more type of the early state.

**Purpose:** identify the root cause of the first states in the historical process

**Methodology:** the hypothesis of age-related periodization of the intellectual evolution of mankind was used as the methodological basis of the study

**Scientific novelty:** revealed the important role of the first rulers in the formation of the first states

**Keywords:** sociocultural system, state, early state, chiefdom, reciprocal distribution, redistribution.

## Giriş/İntroduction

Məlumdur ki, tarixi prosesdə ilk dövlətlərin təşəkkülü e.ə. IV minilliyin ikinci yarısına təsadüf edir. Bu prosesin təfərrüatlarına keçməzdən öncə "dövlət" anlayışının ən başlıca əlamətlərini ayırd etmək tələb olunur. Məsələ burasındadır ki, ilk dövlətlərin yaranması fərqli tarixi və coğrafi şəraitdə baş vermişdir. Ehtimal edilir ki, əsasən, bu səbəbdən ictimai inkişafın növbəti mərhələsində, yəni yazılı tarix dövründə meydana gələn sosiosiyasi sistemlərin strukturu bir-birindən xeyli dərəcədə fərqlənmişdir [20, s.172-173]. Digər tərəfdən, dövlətin definisiyası ilə bağlı mütəxəssislər arasında ümumi fikrin yoxluğu (dövlətin müəyyən edilməsi ilə bağlı verilmiş təriflərin sayı həddən artıq çoxdur və onların məzmunu müxtəlifdir), yəni qeyri-müəyyənlik hökm sürdüyü səbəbindən tarixdə meydana gəlmiş ilk potestar-siyasi sistemlərin dövlət adlandırılması məsələsi xeyli problemlərlə üzləşməkdədir [11, s.21]. Ona görə tarixdə ilk dəfə təşəkkül tapmış potestar-siyasi sistemlərin dövlət kimi qəbul edilməsi məsələsi də mütəxəssislər arasında xeyli fikir ayrılığına səbəb olmaqdadır. Yada salmaq yerinə düşər ki, hələ K.Marks Qədim Şərq cəmiyyətlərinin səciyyələndirilməsi zamanı yaratdığı ictimai-iqtisadi formasiyalar nəzəriyyəsinin əsaslarına uyğun gəlməyən "Asiya istehsal üsulu" terminindən istifadə etmişdir. Bu kontekstdə qeyd olunmalıdır ki, müasir dövrdə əksər mütəxəssislər dövlətin yaranmasının marksist əsaslarda izahının mümkünsüzlüyü mövqeyindən çıxış edirlər [11, s.22]. Məsələ burasındadır ki, ilk dövlətlərin təşəkkülü problemi az qala aksiom kimi qəbul etdiyimiz siniflərin meydana gəlməsi ideyası zəminində öz həllini tapa bilmir. Son dövrlərdə əldə edilən arxeoloji və tarixi materiallar tam aydınlığı ilə göstərir ki, e.ə. IV miniliyin sonlarında ilk dövlətlərin meydana gəldiyi Yaxın Şərqdə hələ siniflər yaranmamış, tam mənada xüsusi mülkiyyət (yəni dövlətin nəzarətindən asılı olmayan) hələ təşəkkül tapmamışdır. Həmin səbəbdən marksist ənənələr üzərində formalaşmış müasir rus tarixçiləri də artıq quldarlıq quruluşu kimi tanıdığımız tarixi inkişaf mərhələsindən imtina etməyə başlamışlar (bu formasiya istisna hal kimi yalnız e.ə. I minillikdə antik mədəniyyətin təşəkkül tapdığı bir bölgədə təzahür etmişdir və dünyanın digər regionlarına tətbiqi baxımından yararlı deyildir). Artıq Yaxın Şərqdə yaranmış ilk dövlətlər daxilində vahid mülkiyyət, yəni "hakimiyyət-mülkiyyət" sisteminin [bax: 8, s.100] mövcudluğu faktı mütəxəssislər tərəfindən qəbul edilməkdədir. Tanınmış amerikalı şərqşünas İ.Gelbin fikirlərini dəstəkləyən akademik Q.A.Melikişvili də öz məqaləsində həm Mesopotamiyada, həm də Qədim Misirdə məhz vahid dövlət mülkiyyətinin olması (şəxsi mülkiyyətin isə yoxluğu) mövqeyini

əsaslandırmışdır [21, s.6-7]. Bütün bu məqamların qeyd olunması bir daha onu göstərir ki, qaldırılan məsələlərin həllinə keçməzdən öncə, ilk növbədə, "dövlət" anlayışının məzmununu müəyyənləşdirən ən başlıca əlamətləri ayırd etmək gərəkdir.

**Əsas hissə/Main part**

**Dövlət anlayışının məzmununa dair**

Qaldırdığımız problemlə bağlı müasir dövrün aparıcı tədqiqatçılardan olan L.Y.Qrininin monoqrafiyasından aydınlaşır ki, dövlətin məzmununu müəyyənləşdirən aşağıdakı üç başlıca əlamət hazırda bütün mütəxəssislər tərəfindən qəbul edilməkdədir: 1) müəyyən ərazinin mövcudluğu; 2) vergilərin yığılması; 3) əhalidən ayrılmış xüsusi sosial qrupun – administrativ və repressiv aparatın mövcudluğu [11, s.22]. Qrinin bildirir ki, erkən siyasi sistemlər üçün bu üç əsas əlamətin dolğun təzahürü heç də səciyyəvi hal deyildir. Qeyd olunan əlamətlərdən biri və ya ikisi dövlət kimi qiymətləndirmək istədiyimiz erkən siyasi sistemlərdə özünü tam şəkildə (bəzi hallarda isə ümumən) büruzə verməmişdir [11, s.22]. Bu reallığı görən əksər mütəxəssislər tarixdə ilk dəfə təşəkkül tapmış dövlətləri sonrakı dövrün analoji sistemlərindən fərqləndirmək üçün "erkən dövlət" anlayışından istifadə edilməsi qərarına gəlmişlər. Yuxarıda qeyd etdiyimiz üç başlıca əlamətin tam şəkildə özünü büruzə verdiyi siyasi sistemlər isə "inkişaf etmiş dövlət" termini ilə ifadə olunmuşdur (bu terminə daxil olan dövlətlər əsasən Orta əsrlərdə təşəkkül tapmışdır). Qrinin öz həmkarlarından daha qabağa gedərək bu təsnifatı bir az da genişləndirmiş və müasir dövrün milli dövlətlərinin əvvəlki siyasi sistemlərdən xeyli dərəcədə fərqləndiyini nəzərə alaraq, üçüncü termini (yəni "yetkin dövlət" anlayışını) elmi dövriyyəyə daxil etmişdir [11, s.23-25]. İndi isə qədim dövrdə meydana gəlmiş siyasi sistemlərin yuxarıda qeyd etdiyimiz üç başlıca əlamətə nə dərəcədə uyğun olub-olmaması məsələsini konkret misala müraciət edilməsi vasitəsilə nəzərdən keçirək.

İsraildən olan mütəxəssis M.Berentin məqaləsindən aydın olur ki, yunan polislərinin qeyd etdiyimiz üç başlıca əlamət baxımından dövlət kimi təqdim edilməsi xeyli problematikdir. İlk baxışdan bu mühakimə tərəddüd yaratsa da, yunan polislərinin idarəetmə sistemində repressiv icraedici orqan mövcud olmamışdır [6, s.236]. Eyni zamanda tarixi araşdırmalardan yaxşı məlumdur ki, Yaxın Şərq ölkələrində yaranmış erkən dövlətlərdə əhalidən vergi tutulmuşdur, halbuki yunan polislərində belə hal özünə yer tapmamışdır. Belə arqumentlərdən irəli gələn Berent bildirir ki, əslində, yunan polislərinin dövlət kimi qələmə verilməsi doğru deyildir. Çəkdiyimiz konkret misaldan başa düşmək olar ki, ümumən siyasi sistemlərin yaranmasını, yəni politogenezi, dövlətlərin yaranması prosesindən, yəni steytogenezdən (*state* – ingilis dilindən tərcümədə dövlət mənasını bildirir; bu anlayışı elmi dövriyyəyə L. Qrinin gətirmişdir) fərqləndirmək mümkündür [11, s.98]. Yuxarıdakı misaldan görünür ki, politogenez steytogenezdən daha geniş anlayışdır, çünki tarixi prosesdə siyasi sistemlərin dövlətdən fərqlənən digər təzahür formaları da mövcud olmuşdur. Başqa sözlə, sosial inkişaf çoxistiqamətli səciyyə daşımış və siyasi sistemlərin dövlətə alternativ olan fərqli təzahür formaları şəklində özünü büruzə vermişdir (bu barədə daha ətraflı bax: 7). Bu formalardan ən geniş yayılmışı isə Qərb ədəbiyyatında geniş arxeoloji və etnoqrafik materiallar əsasında işlənilmiş "çifdom" ("chiefdom" termini ingilis dilindən "başçılıq sistemi" kimi tərcümə oluna bilər; rus dilində bu termin «вождество» adı altında elmi dövriyyəyə daxil edilmişdir, Türkiyədə isə bu "şeflik" termini ilə ifadə olunur) məfhumu ilə bağlıdır [18, s.13]. Bu anlayış bizim elmi dilimizə ilk dəfə hazırkı tədqiqat işində daxil edildiyi üçün onun əsasında yaradılmış müvafiq konsepsiyanın əsas məqamlarına diqqət yetirilməsi məqsədəuyğun olardı.

Tanınmış mütəxəssis N.N.Kradinin bu məsələlərə həsr edilmiş xüsusi tədqiqat əsərindən aydın olur ki, çifdom, yəni başçılıq adı altında elmi dövriyyəyə daxil edilən potestar sistem (dövlətə qədər meydana gəlmiş siyasi sistemlər etnoqrafiya elmində potestar sistemlər kimi təqdim edilir) siyasi təşkili və idarəetmə mexanizmi baxımından tayfadan daha yüksək səviyyədə dayanan sosial sistemdir. Belə ki, tayfa birliyində başçı ilə bərabər agsaqqallar şurası da yüksək idarəetmə səlahiyyətlərinə malikdir və burada hakimiyyət sistemi daha primitiv səciyyə daşıyır. Tayfa

sistemində birlik üzvləri tərəfindən təşkil edilən yığıncaqların idarəetmə işlərində xeyli rolu vardır. Bundan fərqli olaraq başçılıq sistemində onun tərkibinə daxil olan insanlar idarəetmə işlərindən kənarlaşdırılmış vəziyyətdədirlər. Tayfanın üzvləri arasındakı əlaqələr daha çox eqalitar (fransız sözüdür, tərcümədə "bərabərhüquqlu" mənası verir), yəni bərabərhüquqlu münasibətlər səviyyəsində qurulmuşdur. Bundan fərqli olaraq, başçılıq sistemində artıq cəmiyyətin fövqündə dayanan avtoritar idarəetmə orqanı fəaliyyət göstərir və hakimiyyət sakral səciyyə daşıyır [18, s.19]. Dediklərimiz baxımından başçılıq institutu tayfa ilə münasibətdə dövlətə daha yaxın olan sosiopotestar sistemdir. Başçılıq sistemini dövlət idarəetməsindən fərqləndirən mühüm cəhət isə qanuniləşdirilmiş şəkildə gücdən istifadəyə monopoliyanın yoxluğudur [18, s.17]. Başçılıq sistemində rəhbərin sözü silah gücünə deyil, nüfuza əsaslanır [19, s.10]. Başçılıq sistemini dövlətdən fərqləndirən digər bir cəhət isə idarəetmədə daxili differensiasiyanın olmamasıdır. Tanınmış amerikalı mütəxəssis Ç.Spenser bu münasibətlə bildirir ki, başçılıq sistemində hakimiyyətin daxili differensiasiyanın, başqa sözlə, idarəetmə aparatının yoxluğu ali başçının səlahiyyətlərinin xeyli dərəcədə yerli icma rəhbərləri ilə bölüşməsi reallığından irəli gəlir [27, s.139-140]. Belə demək mümkünsə, başçılıq sistemində ali başçı hələ avtoritar şəkildə qərarlar qəbul etmək səlahiyyətlərinə malik deyildir, çünki o, yerli icma başçılarının mövqeyi ilə hesablaşmalıdır. Belə olan təqdirdə (yəni yerli başçılardan asılılığın olduğu bir şəraitdə) əlavə məhsulun yığılması üçün ali başçı hansı üsullara əl atmağa çalışır? Ç.Spenserə görə, bunun üçün 4 üsuldan istifadə edilir: 1) hakimiyyətin sakrallaşdırılması; 2) ali başçı ilə icma rəhbərləri arasında ittifaqların yaradılması (əsasən nigah əlaqələri vasitəsilə); 3) prestij mal mübadiləsi; 4) icma başçıları ilə birlikdə uğurlu hərbi əməliyyatların aparılması [27, s.141]. Bütün bu üsullar əlavə məhsulun yığılması ilə yanaşı, ali başçının nüfuzunun artırılmasına da imkan yaradırdı. Bu yerdə üçüncü üsulun, yəni prestij mal mübadiləsinin mahiyyətinə bir qədər aydınlıq gətirilməsinə ehtiyac vardır. Ali başçının sakral statusa malik olması icmalar tərəfindən ona verilən əlavə məhsulun və payların miqdarının artırılmasına gətirib çıxarırdı. Bu başqa cür ola da bilməzdi, çünki başçılıq sisteminə daxil olan insanların təsəvvüründə istehsal edilən ərzaq məhsullarının bolluğu, ruhların və allahların onlara qarşı mərhəmətli olması bilavasitə ali başçının istəyi və bacarığı ilə müəyyənləşirdi. Bu münasibətlə tanınmış mütəxəssis E.Sautholl bildirir ki, başçı vəzifəsinin sakrallaşdırılması idarəetmədə mərkəzləşməyə aparan ən birinci yol olmuşdur. Burada insanların qeyri-adi qüvvələrə inandıqları və onların mərhəmətinin qazanılması yolunda ali başçıların fövqəl imkanlarına ümid etmələri səbəbindən əlavə məhsulun onlara pay verilməsi anlamını rol oynayırdı. Sautholl hesab edir ki, başçılıq sistemində rituallığın, sakrallığın mühüm əhəmiyyət daşıması səbəbindən ilk dövlətlərin təşəkkül tapması da endogen səciyyə daşımışdır [26, s.130-131]. Bu yerdə qeyd etmək yerinə düşər ki, işğalçılıq vasitəsilə (yəni ekzogen üsulla) dövlətin yaradılması sonrakı dövrlərin məhsuludur. Ali başçının nüfuzu (sakrallığı ilə yanaşı) ona verilmiş əlavə məhsulun ehtiyacı olanlara və xüsusən bayramlarda əhaliyə paylanılması ilə müəyyənləşirdi. Əlavə məhsulun mərkəzləşdirilmiş qaydada əhaliyə paylaşdırılması üsulu elmdə "redistributiv mübadilə" adını almışdır. Bundan fərqli olaraq, eqalitar cəmiyyətlər üçün (yəni idarəetmənin ierarxik olmadığı sistemlərdə) məhsulun retsiprok mübadiləsi (yəni məhsulun icma nümayəndələri arasında bərabər paylaşdırılması) səciyyəvidir. Retsiprok mübadilə o deməkdir ki, məhsulun əldə edilməsində hamı bacardığı qədər çalışır və lazım olduğu qədər pay alırdı. Eyni zamanda, retsiprok mübadilədə məhsulun bölüşdürülməsi mərkəzdən idarə edilmirdi, kollektiv daxilində aparılırdı [9, s.31].

**İlk dövlətlərin təşəkkülü məsələsi**

Əvvəldə qeyd edildi ki, tarixi prosesdə dövlətlərin hansı səbəbdən meydana gəlməsi və ilk sosiopotestar sistemlərin hansı nəzəri əsaslarla dövlət adlandırılması ilə bağlı mütəxəssislər (ilk növbədə şərqşünaslar və tarixçilər) arasında xeyli fikir ayrılığı mövcuddur və bu məsələlərin araşdırılmasında həllini tapmayan suallar vardır. Bu problemlərdən biri ilk sosiopotestar sistemlərin məhz iri çay hövzələrinin yanında meydana gəlməsi reallığı ilə bağlıdır. Əvvəlki dövrlərin arxeoloji tədqiqatlarına əsaslanan mütəxəssislər uzun illər belə qənaətə gəlmişlər ki, irriqasiyaya əsaslanan iri əkinçilik təsərrüfatlarının idarə edilməsi təbii şəkildə (artıq məhsulun əldə edilməsi və təşkilatçılıq işlərinin aparılması) sosial differensiasiyaya səbəb olmuş, bununla da siniflərin yaranmasını mümkün

etmiş və nəticədə cəmiyyətin idarə olunmasında hakimiyyətin mərkəzləşməsini zəruri şəkildə ortaya qoymuşdur; bu da son nəticə etibarilə şəhərlərin və onların əsasında formalaşan dövlətlərin yaranmasının iqtisadi-sosial əsaslarını təmin etmişdir [13, s.5]. İlk baxışdan məntiqi görünən bu yanaşma son arxeoloji tədqiqatların nəticəsi ilə aradan qaldırıla bilir. T.e.d. N.V.Kozıreva öz irihəcmli məqaləsində göstərir ki, "Uzun illər elmdə Cənubi Mesopotamiyanın Ur və Uruk şəhərləri sivilizasiyanın yaranmasının və urbanizmin mərkəzləri kimi təqdim edilirdilər. Hesab edilirdi ki, e.ə. IV minilliyin sonu - e.ə. III minilliyin əvvəllərində Cənubi Mesopotamiyada şəhər inkişafının "partlayışı" baş vermiş və məhz orada tarixin ən erkən şəhərləri meydana gəlmişdir. Lakin arxeoloqların son tapıntıları göstərdi ki, Cənubda mərkəzin, Şimalda isə periferiyanın yerləşməsi modeli yenidən nəzərdən keçirilməlidir, çünki ən qədim şəhərlər həm Suriyada (Böyük Mesopotamiyanın şimalında yerləşir – R.H.), həm də Şimali Mesopotamiyada mövcud olmuşdur" [17, s.20]. Qeyd edək ki, Böyük Mesopotamiya bir sıra səbəblərə görə (coğrafi və etnik fərqlilik, dövlət idarəçiliyində fərqli iqtisadi-sosial-siyasi təməllərin mövcudluğu) mütəxəssislər tərəfindən iki regiona bölünmüşdür – Şimali və Cənubi Mesopotamiyaya (məhz sonuncu Şumer adı ilə tanınır); və bu ikili vəziyyət, yəni regionların nisbətən müstəqil fəaliyyəti e.ə. XXIV əsrdə Sarqonun idarəçiliyi dövründə vahid Şumer-Akkad dövlətinin yaradılması ilə aradan qaldırılmışdır. Kozırevanın məqaləsindən aydın olur ki, Böyük Mesopotamiyanın şimalında dağətəyi rayonda yerləşən Tell Brak şəhəri ərazisinə görə Şumer şəhərlərindən daha böyük olmuşdur (ətraf yaşayış məskənləri ilə birlikdə 130 hektar ərazi və 15 min əhali). Burada e.ə. 3800-3400-cü illər arası sosial differensiasiya daha yüksək səviyyədə baş tutmuş, idarəetmənin mərkəzləşməsi daha dərin səciyyə daşımışdır [17, s.21]. Ən əsası isə odur ki, buradakı əkinçilik işləri icmanın birgə zəhmətini nəzərdə tutan və ona görə də daha çox idarəçilik qabiliyyəti tələb edən irriqasiyaya deyil, monoqam ailələrin gücünə əsaslanan təsərrüfat fəaliyyəti ilə səciyyələnmişdir [17, s.21]. Məsələ burasındadır ki, Cənubdan fərqli olaraq, Şimalda, xüsusən Xabur çayı (Fərat çayının qoludur) ətrafında yerləşən dağətəyi rayonlarda əkinçiliyin aparılması təbii suvarılmaya əsaslanırdı (söhbət yağış və qrunt sularından gedir), çünki iqlim şəraiti buna imkan verirdi [5, s.6]. Ona görə də burada icmaların kollektiv birgə səyinə ehtiyac qalmırdı (həm də bu ərazilərdə Cənubda olduğu kimi, iri çay hövzələri yox idi). Şimalda bu tip şəhərlərin sayı kifayət qədər şox olmuşdur (Kozırevanın məqaləsində bu adlar sadalanmışdır). Deməli, ilk dövlətlərin yaranmasının məhz iri çay hövzələrində baş tutması ideyası özünü doğrultmur! Bu qənaətin doğruluğu Krit adasında e.ə. III minilliyin sonlarında təşəkkül tapmış Minoy sivilizasiyasının timsalında da öz təsdiqini tapır [2, s.118-119]. Burada paytaxtı Knoss və Fest şəhərləri olan, dərin sosial differensiasiyaya malik, iri məbədlərin və şah saraylarının mövcudluğu ilə səciyyələnən ilk dövlətlərin təşəkkül tapmasında dənli bitkilərin, xüsusən də üzümçülüyün və zeytunçuluğun (buna *Aralıq dənizi triadası* deyilir) geniş yayılması, ətraf ada (Egey dənizi adaları) və qədim mədəniyyətlərlə (Yaxın Şərq sivilizasiyaları nəzərdə tutulur) sıx ticarət əlaqələrinin olması mühüm rol oynamışdır [14, s.40-41]. Beləliklə, ilk dövlətlərin meydana gəlməsini yalnız iri çay hövzələri ətrafında böyük əkinçilik təsərrüfatlarının yaranması faktı ilə izah etmək cəhdləri özünü doğrultmur.

Qaldırılan problemin ikinci düşündürücü məqamı onunla bağlıdır ki, ilk dövlətlərin yaranması Mesopotamiyada, eləcə də indiki İraqın və Suriyanın şimal ərazilərində (Yaxın Şərqdə ilk sivilizasiyaların təşəkkül tapdığı rayonlar ümumilikdə "məhsuldar yarımay" bölgəsi adı ilə də tanınır) uzun minilliklərin sosiomədəni təkamülündən qaynaqlanmışdır (bu bölgədə e.ə.VI minillikdən etibarən ardıcıl şəkildə təşəkkül tapmış Xassuna, Samarra, Xalaf və Ubeyd mədəniyyətləri bir-birini əvəzləmişdir). Bundan fərqli olaraq Qədim Misirdə ilk dövlətlərin təşəkkül tapmasına aparan proseslər Mesopotamiya ilə müqayisədə qısa zaman kəsiyində təzahür etmişdir (bir növ neolitdən birbaşa ilk dövlətlərin yaranmasına keçid baş vermişdir). Bu məsələyə fundamental akademik nəşrdə də xüsusi olaraq nəzər yetirilmişdir: "Neolit Nil vadisində sülaləyəqədərki dövrə (yəni Qədim Misir fironlarının I tarixi sülaləsindən öncəki dövrə) təsadüf edir (e.ə. V-III minilliklər). Bu dövrə nilotlaşma (yəni çay ətrafındakı oturaq həyat tərzinə uyğunlaşma) və neolitləşmə (istehsal edən təsərrüfata keçid) prosesləri xasdır. Sonuncunun gecikməsi səbəbləri (qonşu Fələstində əkinçilik və

maldarlıq e.ə. IX-VIII minilliklərdən mövcuddur) tarixçilər tərəfindən araşdırılmaqdadır” [10, s.103]. Bu məsələyə bir az da aydınlıq gətirmək üçün konkret misallara müraciət edək. Yaxın Şərqdə aparılan arxeoloji qazıntıların hamısı bir danılmaz faktı ortaya qoyur – Böyük Mesopotamiyada ilk dövlətlərin yaranması birdən - birə baş verməmiş və bu ərazilərdə əvvəllər mövcud olmuş mədəniyyətlərin və xüsusən də yüksək səviyyəli Ubeyd sivilizasiyasının təməli üzərində qurulmuşdur. Burada “sivilizasiya" sözünün işlədilməsi təəccüb doğurmamalıdır, çünki Ubeyd mədəniyyətində sivilizasiyanı xarakterizə edən əksər xüsusiyyətlər öz təzahürünü tapmışdır. Bu xüsusiyyətləri sadalamaq məqsədəuyğun olardı: dərin sosial differensiasiyanın baş tutması (əkinçilərlə yanaşı varlı təbəqə və şəhər elitası, sənətkarlar və tacirlərin yaranması), erkən şəhərlərin artıq e.ə.VI minillikdən etibarən təşəkkül tapması (Çatal-Hüyük, Hacılar və d.); iri məbədlərin və sarayların, yəni monumental tikililərin meydana gəlməsi (Tell Brak, Təpə Qavr, Uruk və digər erkən şəhərlərdə), irriqasiyaya əsaslanan iri təsərrüfatların mövcudluğu və s. Bir sözlə, ilk dövlətlərin yaranması üçün Ubeyd mədəniyyəti əksər tələb olunan atributları və şərtləri formalaşdıra bilmişdir, lakin nədənsə bu hadisə (yəni ilk dövlətlərin meydana gəlməsi) IV minilliyin sonuna qədər baş verməmişdir?! Ubeyd mədəniyyətinə aid olub, özündə yuxarıda sadaladığımız əlamət və şərtləri daşıyan sonuncu arxeoloji abidə 2010-cu ildə Suriyanın Tell Zeydan adlı ərazisində tapılmışdır [30]. Ubeyd mədəniyyətinin nailiyyətləri haqqında isə tanınmış arxeoloq Mellartın əsərindən müfəssəl məlumat almaq mümkündür [22, s.121-125]. Qeyd etmək lazımdır ki, Cənubi Mesopotamiyada təşəkkül tapan Ubeyd mədəniyyəti Aralıq dənizinə qədər uzanan geniş bir ərazidə yayıla bilmişdir. Eyni zamanda, Tell Brak, Nineviya, Uruk və digər bu kimi şəhərlərin arxeoloji tədqiqatları göstərir ki, onlar Ubeyd və ondan əvvəl təşəkkül tapmış mədəniyyətlərin nailiyyətlərinin daşıyıcısı olmuşlar [5, s.19, s.22, s.24]. Konkret olaraq mütəxəssislər tərəfindən birmənalı şəkildə qeyd edilir ki, Şumer sivilizasiyası Ubeyd mədəniyyətinin əsasında təşəkkül tapmışdır. Dediklərimizdən fərqli olaraq, analoji proseslərə Qədim Misirdə təsadüf edilmir.

Qaldırılan problemin üçüncü düşündürücü məqamı onunla bağlıdır ki, təşəkkül tapmış dövlətlərə rəhbərlik edən ilk padşahların, fironların adları yalnız e.ə. IV minilliyin sonlarından etibarən üzə çıxmağa başlamışdır. Sual olunur – bu əhəmiyyətli hadisə nə üçün əvvəllər baş vermirdi? Axı yuxarıdakı araşdırmalarımız göstərdi ki, ən azı Böyük Mesopotamiyada bu fenomenin təzahürü üçün bütün iqtisadi, sosial və potestar-siyasi şərtlər mövcud idi? Cavab belə ola bilər ki, ilk dövlətlərin yaranmasına qədər, yəni e.ə. IV minilliyin sonlarına qədər yazı mövcud deyildi (yəni dövlət başçılarının adını tarixə salmaq imkanı yox idi). O halda söhbət hansı yazıdan gedir? – söz-heca tərkibli yazıdan! Həqiqətən də, söz-heca tərkibli yazı yalnız e.ə. III minillikdən etibarən formalaşmağa başlamışdır (sinxron şəkildə həm Böyük Mesopotamiyada, həm də Qədim Misirdə). Lakin bu reallıq ümumən digər yazı növlərinə aid deyildir, çünki piktoqrafik yazı (yəni şəkillərlə fikrin bildirilməsi) artıq e.ə. IV minillikdə geniş şəkildə yayılmışdır – həm Böyük Mesopotamiyada, həm də Qədim Misirdə (yazı növlərinin tarixi inkişafına dair daha ətraflı bax: 15, s.365-366). Maraqlıdır ki, həm şəxs adlarının, həm də söz-heca üslublu yazının meydana gəlməsi hər iki regionda paralel şəkildə baş vermişdir (bu faktın özü hələ də cavabını gözləyən problemdir). Məlumdur ki, Qədim Misir ieroqlifləri piktoqrafik, yəni şəkilli yazının əsasında yaradılmışdır. Qədim Misirin ilk fironları haqqındakı məlumat (söhbət Narmerdən və Misir sülaləsinin əsasını qoyan Mindən və ya Menesdən gedir) daşın üzərində ifadə olunan şəkilli yazılar (“Narmerin paletkası” və “Palerm daşı”) vasitəsilə əldə edilmişdir [16, s.119; 25, s.37; 24, s.70; 12, s.46-49, s.153].

**İlk dövlətlərin sinxron şəkildə yaranması məsələsi**

Əvvəldə qaldırılan problemin daha bir düşündürücü və bəlkə də ən maraqlı dördüncü məqamı ilk dövlətlərin həm Böyük Mesopotamiyada, həm də Qədim Misirdə eyni zamanda, yəni paralel şəkildə və bir-birindən asılı olmadan meydana gəlməsi məsələsi ilə bağlıdır. Bu barədə A.Oppenheym, S.Tokarev, K.Yaspers kimi tanınmış alim və filosoflar söhbət aparmış, lakin məsələnin mahiyyətinə işıq sala bilməmişlər [23, s.26; 28, s.322; 29, s.42]. Həm bu, həm də əvvəlki üç məqamın aydınlaşdırılması və qaldırılmış sualların cavablandırılması üçün araşdırdığımız dövrdə yaşayan insanların daxili aləminə, onların təsəvvürlərinə nəzər salmaq tələb olunur, çünki hər bir

halda, yəni tarixi prosesdə baş vermiş iqtisadi, sosial, mədəni və siyasi hadisələrin arxasında insanların maraqları, istəkləri və intellektual inkişaf səviyyələri dayanır.

Qədim insanların dünyagörüşünün üzə çıxarılması yolunda qliptikanın (daş parçası üzərində oyma işlərinin aparılmasından düzələn əşyalar) mühüm rolu vardır. Həm neolit, həm də sonrakı dövrlərdə hazırlanan daş möhürlər bu baxımdan maraq kəsb edir. Bütün mütəxəssislər hesab edirlər ki, arxeoloji qazıntılar zamanı e.ə. IV minilliyin ikinci yarısı – e.ə. III minilliyə aid çoxlu sayda aşkar edilən möhürlər əmlak rəmzi ilə yanaşı, həm də talisman (xöşbəxtlik gətirən əşya) və gözmuncuğu funksiyalarını daşımışdır [4, s.496]. Eyni zamanda o da bildirilir ki, möhürlərin üzərindəki təsvirlər allahlara xidmət etmək və rituallıq ideyalarını özündə əks etdirmişdir. Lakin möhürlərin düzəldilməsi Xassuna, Samarra və Xalaf dövrlərinə də (e.ə. VI minillikdən etibarən) xas olmuşdur [3, s.165]. E.ə.VI minillikdən etibarən yaradılmış möhürlərin üzərindəki təsvirlərin süjet xəttinin inkişaf dinamikası qaldırdığımız problemlərin həlli baxımından maraqlı mənzərəni ortaya qoyur. Əgər Uruk dövrünə qədər (yəni e.ə. 3500-cü ilə qədər) hazırlanmış möhürlərdə əsasən heyvan (həm vəhşi, həm də ev heyvanları), eləcə də bitki kompozisiyaları üstünlük təşkil edirsə, artıq Cəmdət-Nəsr və sonrakı dövrlərin (yəni e.ə. 3200-cü ildən sonrakı mərhələ) təsvirləri daha çox müharibə və allahlara qurbanvermə mərasimlərini əks etdirən antropomorf mövzuları ifadə edir. Tanınmış mütəxəssis Y.V.Antonova qeyd edir ki, "Bu dövrün qliptikası dəyişmiş ictimai vəziyyəti əks etdirir, yəni dövlətin bərqərar olmasını və hökmdarın artan rolunu" [4, s.498-499]. Tətbiqi sənətin bir növü olan qliptikanın əks etdirdiyi təsvirlərə dair söylənilən fikirlər müəyyən nəticələr çıxarmağa əsas verir. Dövlət o zaman meydana gəlir ki, artıq hökmdar öz adından və şəxsindən çıxış etməyi bacarır! Apardığımız araşdırmalardan ayırd etmək mümkündür ki, şəxsiyyət amilinin olmadığı bir mühitdə yalnız kollektiv şüur hökmranlıq edir, hətta idarəçilik sistemində belə *kollektiv iradə* aparıcı rol oynayır. Ona görə də e.ə. IV minilliyin sonlarına qədər yaranmış müxtəlif potestar-siyasi sistemlərdə dövlətin təşəkkül tapması üçün tələb olunan bütün atributların (onlardan sosial differensiasiya, şəhərlərin yaranması, tacir və sənətkarların, varlı və kasıb təbəqənin mövcudluğu, piktoqrafik yazının meydana gəlməsi və s.) cəmiyyətdə bərqərar olmasına baxmayaraq, dövlət dediyimiz siyasi sistem ortaya çıxmır. Digər tərəfdən, dövlətin həm Böyük Mesopotamiyada, həm də Qədim Misirdə eyni vaxtda və paralel şəkildə təşəkkül tapması belə deməyə əsas verir ki, şəxsiyyət amilinin tarix səhnəsinə sinxron şəkildə çıxması ümumbəşəri intellektin müəyyən yaş dövrünə çatması ilə izah edilə bilər. Əvvəlki tədiqat işində göstərildi ki, e.ə. IV minillikdə bəşəriyyətin intellektual inkişafında "11 yaşın" tamam olması ilə şəxsiyyət amili meydana gəlmiş və bunun nəticəsi kimi ilk hökmdarlar, fironlar tarix səhnəsinə çıxmış, onların adları eposlara, dastanlara düşmüş "Bilqamıs dastanı" və bununla da, yazılı tarix, o cümlədən dövlətlərin tarixi öz başlanğıc səhifəsini açmışdır [1, s.264]. Bəşəriyyətin intellektual təkamülündə "11" yaşın tamam olması o deməkdir ki, artıq bəzi insanlarda abstrakt təfəkkürün meydana gəlməsi ilə özünü dərk etmə (refleksiya qabiliyyəti) baş qaldırmış, nəticədə tarixdə ilk dəfə olaraq şəxsiyyət amili təzahür etmişdir (tarixi prosesin ilk şəxsiyyətləri hökmdarlar olmuşlar). Həmin səbəbdən piktoqrafik yazıdan abstraktlaşdırılmış yazı üslubuna, morfemdən fonemə keçid mümkün olmuşdur.

## Nəticə/Conslusion

Həm yuxarıda apardığımız araşdırmalara, həm də əvvəlki tədqiqat işinə [1] əsaslanıb deyə bilərik ki, irəli sürdüyümüz bəşəriyyətin intellektual təkamülünün yaş dövrləşdirilməsi hipotezası hazırkı məqalədə qaldırılan problemlərin ziddiyyətsiz qaydada cavablandırılmasına imkan verir. Digər tərəfdən, apardığımız araşdırmalar belə qənaətə gəlməyə əsas verir ki, erkən dövlətin müəyyən edilməsində başlıca üç əlamətə daha birini də əlavə etmək tələb olunur. Bu, şəxsiyyət amilidir, yəni hökmdarın mövcud olması şərtidir. Beləliklə, "***erkən dövlət***" anlayışının müəyyənləşdirilməsi üçün dörd başlıca əlamətin ayırd edilməsi təklif olunur: 1) ərazinin mövcudluğu; 2) verginin tutulması; 3) administrativ aparatın mövcudluğu və nəhayət, 4) hökmdarın mövcudluğu.

## İstifadə edilmiş ədəbiyyat/References

1. Hacıyev R.S. Tarixi prosesin inkişaf dinamikası və ya qloballaşmaya aparan intellektual təkamül yolu, Bakı, "Xəzər Universiteti", 2015, 352s.

2. Andeyev Y.V. ot evroazii k evrope: Krit i eqeyskiy mir v epoxu bronzı i ranneqo jeleza. (III_ naçalo I tısyaçaletiya do n.e.) SPb, "DB",2002, 863 s.

3. Antonova Y.V. Oçerki kulturı drevnıx zemledelsev peredney i Sredney Azii.M «Nauka», 1983, 265 s.

4.Antonova Ye.V. Predstavleniya zhiteley Dvurech'ya o naznachenii lyudey i kontsa IV - pervoy poloviny tret'yego tysyacheletiya do nashey ery. // Drevniye tsivilizatsii: ot Yegipta do Kitaya, Vestnik drevney istorii, 1997, s.491-500.

5. Bagdu A. Istoriya arkheologicheskikh issledovaniy Severo-Vostochnoy Sirii, avtoreferat dissertatsii v poiskakh stepeni krovi. istoriya. nauka. M., Institut arkheologii RAN, 2009, 27s.

6. Berent M. Negosudarstvennaya politika: prezhneye gosudarstvo i drevnegrecheskoye obshchestvo // Al'ternativnyye puti k tsivilizatsii (kollektivnaya monografiya), M., «Logos», 2000, s.235-259.

7. Bondarenko D.M., Grinin L.Ye., Korotayev A.V. Al'ternativy sotsial'noy evolyutsii // Ranneye gosudarstvo, yego al'ternativy i analogii, Volgograd, 2006, «Uchitel'», s.15-37.

8. Vasil'yev L.S. Vostok i Zapad v istorii (osnovnyye parametry problemy) // Al'ternativnyye puti k tsivilizatsii (kollektivnaya monografiya), M., «Logos», 2000, s.96-115.

9. Vasil'yev L.S. Istoriya Vostoka (elektronnaya versiya), M., «Vysshaya shkola», Tom 1, 1998, 307s.

10. Vsemirnaya istoriya: v 6 tomakh, T. 1: Drevniy mir, M., «Nauka», 2011, 822s.

11. Grin L.E. Gosudarstvenno-istoricheskiy protsess. Epokha stanovleniya gosudarstva: Obshchiy kontekst sotsial'noy evolyutsii v stanovlenii gosudarstva, M., «KomKniga», 2007, 272s.

12. Istoriya Vostoka: v 6 tomakh, Tom 1 (pod red. V.A. Yakobsona), M., «Vostochnaya literatura» RAN, 2002, 688s.

13. Istoriya Drevnego Vostoka (uchebnik dlya shkol'nikov, pod red. Kuzishchina V.I.), M., «Vysshaya shkola», 1988, 416s.

14. Istoriya Drevney Gretsii (uchebnik dlya shkol'nikov, pod red. Kuzishchina V.I.), M., «Vysshaya shkola», 2005, 399s.

15. Istoriya pervobytnogo obshchestva. Epokha klassnogo obrazovaniya (pod red. Akademika YU.V. Bromleya), M., Nauka », 1988, 568s.

16. Klark G. Istoricheskiy mir, M., ZAO «Tsentrpoligraf», 2011, 319s.

17. Kozyreva N.V. Vzaimodeystviye etnosov v ranney istorii Mesopotamii // Vestnik drevney istorii, № 3 (278), 2011, s.3-30.

18. Kradin N.N. Liderstvo: sovremennoye sostoyaniye i problemy izucheniya // Ranniye formy politicheskoy organizatsii: ot pervenstva k gosudarstvennosti, M., «Vostochnaya literatura» RAN, 1995, s.11-62.

19. Kradin N.N. Bazovaya zakonnost' proiskhozhdeniya gosudarstva // Kratkiye soobshcheniya Instituta arkheologii (KGIA), № 239, 2015, s.7-27.

20. Maretina S.A. Sotsial'noye rassloyeniye i gosudarstvennost' (na primere malykh narodov Indii) // Ot doklassovykh obshchestv k rannemu klassu, M., «Nauka», 1987, s.158-177.

21 Melikishvili G.A. Ob osnovnykh etapakh razvitiya drevnego blizhnevostochnogo obshchestva // Vestnik drevney istorii, № 4 (175), 1985, s.3-35.

22. Mellart Dzh. Drevneyshiye tsivilizatsii Blizhnego Vostoka, M., «Nauka», 1982, 149s.

23. Oppengeym A. Drevnyaya Mesopotamiya, M., Nauka, 1990, 319s.

24. Perepelkin YU.YA. Istoriya Drevnego Yegipta, Sankt-Peterburg, Letniy sad, 2000, 560s.

25. Prusakov D.B. Ranneye gosudarstvo v Drevnem Yegipte, M., «Institut vostokovedeniya RAN», 2001, 176s.
26. Sautkholl E .. O vozniknovenii gosudarstv // Al'ternativnyye puti k tsivilizatsii (kollektivnaya monografiya), M., «Logos», 2000, s.130-137.
27. Spenser CH. Politicheskaya ekonomiya stanovleniya pervogo gosudarstva // Al'ternativnyye puti k tsivilizatsii (kollektivnaya monografiya), M., «Logos», 2000, s.137-155.
28. Tokarev S.A. Religiya v istorii narodov mira, M, «Politizdat», 1976, 575s.
29. Yaspers K. Smysl i tsel' istorii, M., «Respublika», 1994, 527s.
30. Stein, Gill J. Excavations at Tell Zeidan, Syria // The Oriental Institute. News & Notes. 2009, no. 203, pp. 3-7. http://oi.uchicago.edu/sites/oi.uchicago.edu/files/uploads/shared/docs/nn203-.pdf

**Göndərilib: 15.12. 2020** **Qəbul edilib:26.02.2021**